Ədalət.-2019.-13 noyabr.-S.6.



Mahmud Qacar

## Yürüyür

Muştuluqmuş ötən dərdim -
Həsrət odu ütən dərdim.
Ovunmayır Vətən dərdim
Nə qədər ürək yürüyür.

Boş qaranquş yuvasını -
Zalıma tuş yuvasını;
Günahsız quş yuvasını
Dəli bir külək yürüyür.

Qəlbimin bu sızlar vaxtı
Bir ulduz süzüldü - axdı,
O ülkər yıxılan taxtı
Yuxulu mələk yürüyür?..

Qiblət itib-yönüm qalıb -
Nə təzadlı sonum qalıb,
Bir urvalıq unum qalıb,
Çırpmışam ələk yürüyür.

Əziləni, sıxılanı,
Büdrəyəni, yıxılanı,
Yenə qəflət yuxulunu
Ayıq bir kələk yürüyür.

Bacım laylalar oxuyur -
Uca laylalar oxuyur
Acı laylalar oxuyur -
Dünyanı fələk yürüyür...

## Atatürk

***Türk dünyasının əbədi istinad və güvənc yeri Mustafa Kamal Atatürkə sonsuz sevgilərlə***

Günəş qucağında qızınan Paşa,
Könül ocağında qızınan Paşa;
Ən böyük sevgilər qazanan Paşa -
Sönməz sevgi odasısan Atatürk!

Sadiq qalıb ən ülvi bir amala,
Ucalmışdın Mustafadan Kamala.
Öyrətmişdin hər bir türkə-kam ala,
Mərd Atalar Atasısan Atatürk!

Dözdün tufanlara ay qaya sinə!
Bildi zaman-siyasət mayasına,
Öncül istəyinə, el qayəsinə
Sən dürüstlük qatasısan Atatürk!

Hünərin cahana sığa bilmədi,
Qurduğunu kimsə yıxa bilmədi;
Namərdlər üzünə baxa bilmədi -
Odlu şimşək sədasısan Atatürk!

Ömrün boyu haqq oldu dostun, yarın,
Daim sağsan, dəyişməzdir qərarın -
Çətin gündə eyni köklü xalqların
Köməyinə çatasısan Atatürk!

Türk xalqının dildəndüşməz sözü - Sən,
Millətinin uzaqgörən gözü - Sən,
Sən qüdrətli Türkiyənin özüsən -
Sülh, səadət adasısan Atatürk!

## "Ay işığında"

***Gecə yarısı Almaniya radio kanalının efirindən süzülərək dünyanı dolaşan bu sevimli xalq mahnımızı dinləyərkən keçirdiyim yurd niskilli acı duyğularım***

### Duyğu - 1

"Mən səni gördüm
Ay işığında,
Könlümü verdim
Ay işığında..."
Qəmli çağımda
bu kövrək mahnı
hardan süzüldü?!.
Bu gen dünyadan
Əlim üzüldü
"Ay işığında,
Ay işığında..."
Ürəyim əsdi
hey əsim-əsim,
Daha həyanım
kim olacaq, kim
"Ay işığında,
Ay işığında?!."
"Tez gəldi hicran,
ayrıldıq, aman!"
İtirdim, yurdda açarım qaldı,
Gözləri yaşlı Qacarım qaldı
"Ay işığında, Ay işığında"
İgid şəhidlərin
ruhu göynədi -
Məzarda müqəddəs
yuxu gönədi
"Ay işığında, Ay işığında"
Tükəndi səbrim -
son fərman olsun!
Bir qaşıq qanım
ana torpağa
qoy dərman olsun
"Ay işığında, Ay işığında!"
"Yenə gəl bizə,
duraq üz-üzə".
Ocaqlı dağım,
Köndələn çayım,
Qalib səsimi
dünyaya yayım
"Ay işığında, Ay işığında!"

### Duyğu - 2

"Ay işığında"*san könül, bax, yenə -
Sanki günəş doğur yatmış bəxtinə.
On dörd gecəlik Ay qalxır taxtına -
Bu mahnıda min məna var bu gecə.

Dünyamıza işıq yayır o gümmağ,
Nə gözəldir belə nurdan od ümmağ.
Ay nurunda səfər edir odur, bax -
Durnalar da qatar-qatar bu gecə.

Yurd həsrəti dağdan ağır çəkidə,
"Ay işığı", gəl məni az silkələ!
İlan çalan yata bilər bəlkə də,
Təşnə könül çətin yatar bu gecə.

*"Ay işığında" xalq mahnısı

## Uzaq yaşayır

***(Taleyi üzünə gülməyən, məxsusi ailə-uşaq üzünə həsrət qızlarımıza dərin ehtiramla)***

Sevdiyinə çiçək yığa bilməyir,
Bu buzlu qəlibə sığa bilməyir;
Tilsimə düşübdür, çıxa bilməyir -
Bir qız qadınlıqdan uzaq yaşayır.

Ömrü yuxarıdan aşağı sayır,
Bəxtsiz uşaqları uşağı sayır;
O, qövsü-quzeyi qurşağı sayır -
Bir qız qadınlıqdan uzaq yaşayır.

Hər sözü qızılgül ətri qoxuyur,
Hər axşam yuxuda çələng toxuyur;
Hər səhər ən nurlu dua oxuyur -
Bir qız qadınlıqdan uzaq yaşayır.

Ömrü fəda edən rahibə deyil,
Özü öz mülkünün sahibi deyil;
Nə daş parçasıdır, nə civə deyil -
Bir qız qadınlıqdan uzaq yaşayır.

Bir vaxt anlamayıb: bu nədi - verib?
Nadir hədiyyəsin əbədi verib.
Son hökmü taleyi, səhhəti verib -
Bir qız qadınlıqdan uzaq yaşayır.

Arzu, niyyət hələ vüsət deyilmiş,
Sona olmaq Tanrıdan vəd deyilmiş;
Ana olmaq ona qismət deyilmiş -
Bir qız qadınlıqdan uzaq yaşayır.

Ən şirin hissləri dərində qalıb,
Qarabağda - dağda, dərədə qalıb...
Əbədi gözəllik vərində qalıb -
Bir qız qadınlıqdan uzaq yaşayır.

Sirli aləmlərdən soraqdır o qız,
Məqamı ucadır - bayraqdır o qız;
Ən ülvi sevgiyə layiqdi o qız -
Bir qız qadınlıqdan uzaq yaşayır.

## Qaya başında qalmışam

Hər an yıxıla bilərəm,
İtib, yox ola bilərəm;
Uçan ox ola bilərəm
Ömrün qışında qalmışam -
Qaya başında qalmışam.

Bayquşlara qalıb zirvəm,
Qeyrətimə söyür "kirvəm"*...
Buzlaşıbdır burda çevrəm
Ağlım çaşanda qalmışam -
Qaya başında qalmışam.

Məni bura qəm çıxarıb,
İtkilərim - kəm çıxarıb;
Sərxoş edib - dəm çıxarıb,
Sellər daşanda qalmışam -
Qaya başında qalmışam.

Yurd itəndən təkəm burda -
Tanrım görə bəlkə burda,
Görüb, əncam çəkə burda
Qalxıb tuşunda qalmışam -
Qaya başında qalmışam.

Aləmə qulaq asıram -
Burdan dinləyib, yazıram
Vətən, əmrinə hazıram!
Qisas yaşında qalmışam -
Qaya başında qalmışam...

***Mənfur qonşumuz ermənilər bir vaxt bizə belə müraciət edirdilər.***